

Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 111
(4628) ÇƏRŞƏNBƏ, 23 MAY 2007-ci il
Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur
www.azerbaijan.news.az
Qiyməti 20 qəpik

## Qafqaz Müsəlmanları İdarəsinin sədrinə Rusiyanın «Drujba» ordeni təqdim olunmuşdur



Mayın 22-də Rusiyanın xarici işlər naziri Sergey Lavrov Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadəyə "Drujba" ordenini təqdim etmişdir. Qafqaz Müsəlmanları İdarəsinin başçısı S.Lavrovu və onu müşayiət edən şəxsləri səmimi salamlayaraq əmin olduğunu bildirmişdir ki, bu səfər ölkələrimiz arasındakı qarşılıqlı anlaşmanın və əməkdaşlığın bundan sonra da möhkəmlənməsinə kömək edəcəkdir.

A.Paşazadə demişdir: "Mən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Rusiyaya münasibətinin şahidiyəm. O, həmişə ölkələrimiz arasında tarixi əlaqələrin inkişafının tərəfdarı olmuşdur".

Şeyxülislam bildirmişdir ki, indi bu ənənələri prezidentlər İlham Əliyev və Vladimir Putin davam etdirirlər. Onların səyləri bir çox sahələrdə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində nailiyyətlər əldə olunacağına ümid bəsləməyə imkan verir. S.Lavrov demişdir: "Rusiya Prezidenti Vladimir Putin "Drujba" ordenini Sizə təqdim etmək kimi fəxri vəzifəni mənə tapşırmışdır. Bu mükafat Azərbaycan və Rusiya xalqları arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə, dinlər və mədəniyyətlər arasında dialoqun genişlənməsinə, Qafqaz regionunda qarşılıqlı anlaşmaya sizin şəxsi töhfənizin etirafıdır".

Qonaq bildirmişdir ki, Rusiyada Prezident Vladimir Putin İlham Əliyevin rəhbərliyi ilə dost Azərbaycanın uğurlarına ürəkdən sevinir, bu siyasətin təməlinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu bilir və yüksək qiymətləndirir.

S.Lavrov vurğulamışdır ki, Rusiya İslam Konfransı Təşkilatında müşahidəçi statusu almışdır. Bizim namizədliyimizə dəstək olduğunuzu yaxşı bilirik.

Sonra Sergey Lavrov Prezident Vladimir Putinin fərmanını oxumuş və "Drujba" ordenini A.Paşazadəyə təqdim etmişdir. Mərasimdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Milli Məclisin deputatları, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın Azərbaycandakı səfiri Vasili İstratov, Bakı və Xəzəryanı rus pravoslav yeparxiyasının başçısı Aleksandr ata, dini konfessiyaların başçıları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov, xarici ölkələrin Azərbaycandakı səfirləri, KİV nümayəndələri iştirak etmişlər.

***AzərTAc***